# Gələcək həyatın təminatçısı

(Əvvəli 3-cü səhifədə).

beynəlxalq yarışlarda gənclərimizin nailiyyətlərinin ildən-ilə artması bu sahəyə olan diqqətin bariz nümunəsidir.

Müasir dövrdə elmin və texnologiyanın sürətli inkişafında da dövlətimiz gənclərlə bağlı zamanın tələblərinə uyğun siyasəti zəruri hesab edir.




Azərbaycan gəncləri üçün ən həlledici sınaqlardan biri də 2020-ci il 27 sentyabrda başlayan 10 noyabradək davam edən Vətən müharibəsi olmuşdur ki, gənclik bu sınaqdan da ləyaqətlə çıxdı və ölkə tarixini Zəfər tarixi ilə yenidən yazdı. Gənclərimiz arasında vətənpərvərlik, milli-mənəvi zənginlik məhz onların tarixi qələbəsi ilə bir daha təsdiqini tapdı.

Gənclər xalqımızın əsrlər boyu yaratdığı dəyərləri qorumalıdırlar. Prezident İlham Əliyev demişdir: “Bilikli, savadlı, Vətənə bağlı müasir gənclik Azərbaycanın dayanıqlı uğurunun təminatçısıdır. Gənclər biliklərlə yanaşı, Vətənə bağlı olmalıdırlar, Vətəni və dövlət maraqlarını hər şeydən üstün tutmalıdırlar.”

Xalqımız əsrlər boyu öz dəyərlərini, ənənələrini, bütövlükdə yaşam fəlsəfəsini qoruyaraq bu günümüzə qədər daşıyıb və onları zaman-zaman yeniləri ilə daha da zənginləşdirib. Azərbaycanı fərqləndirən cəhət də odur ki, bizim cəmiyyətimiz konservativ cəmiyyətdir və möhkəm tellərlə öz ənənələrinə bağlıdır. Qloballaşan dünyada bu amil böyük önəm daşıyır və xalqımızın identikliyini təmin edir.

Gənclik sabahkı həyatdır. Bu həyatı sağlam, mübariz və zəngin ənənəvi dəyərlərlə yaşamaq və yaşatmaq üçün bugünkü gəncliyə diqqət etməli, gələcəyin “təminatını” bu gün yaratmalı və düzgün istiqamətləndirməli və milli zəmində dünyəviləşdirməklə qoruyub saxlamalıyıq. Gənclik böyük qüvvədir və bu qüvvə sabahımızın təminatıdır!

**Bibixanım İSAYEVA.**

# Gənclik sabahın güzgüsüdür

*Bu günkü gənclik sabahkı həyatdır. Sabahlarımızın sağlam dərrakə və düşüncə tərzi, sağlam əqidə, həyata baxışı bu günün düzgün təlim-tərbiyəsi düşüncələrin mənəvi saflığı əsasında formalaşmasından asılıdır. Yaşadığımız zaman texnologiya əsridir. Müasir gəncliyin öyrəndiyi, aldığı təhsil elm və müasirliyə köklənir. Onların zamanın tələbinə uyğun öyrəndiyi bilgilər də real və əsaslı mənbələrdən olmalı, gələcəyimiz möhkəm təməl üzərində qurulmalıdır. Gənclərimiz və bu günümüz, sabahımız haqda rayonumuzun qocaman müəllimlərindən biri, Xırxatala kənd sakini, təqaüdçü filoloq Niyazi Zöhrabovdan bir ağsaqqal ziyalı kimi müsahibə aldıq. Həmin müsahibəni oxucularımıza təqdim edirik.*

***- Niyazi müəllim, gənclik dedikdə nə düşünürsünüz? Gənclik nə deməkdir?***

- İnsan öz uşaqlığını, qayğısız günlərini yaşadıqdan sonra ətraf aləmi dərk etməyə başlayır. Dərk etdikcə özünü bir növ böyümüş, qərarlarını verə biləcək biri sanır. Bu uşaqlıqdan sonrakı yeniyetməlik dövrüdür. İnsan ömrünün 18-35 yaşları isə onun gəncliyidir. Yaş üstünə yaş gəldikcə insanın psixologiyası da dəyişir. Ancaq gənclik dövrü insan ömrünün bahar çağlarıdır. Gözəl şairimiz Bəxtiyar Vahabzadə demiş ki, gənclik arzuların uçuş nöqtəsidir.

***- Sizin fikrinizcə, hazırkı dövrdə sağlam gənclik varmı, və bunu necə izah edə bilərsiniz?***

- Əlbəttə, var. Hər il ali məktəbə qəbul imtahanlarında yüksək bal toplayıb ali məktəblərə qəbul olan, bakalavr təhsilindən sonra xarici ölkələrdə təhsil alan, elmi tədqiqatlar sahəsində uğur qazanan, halal zəhməti ilə yaşayan, əlləri "qızıl" olan sənət, peşə adamları sağlam gənclik deyilmi? Ordumuzun igidləri, ən ali rütbə olan Şəhid adı qazananlar, qazilər, Zəfər tarixini yenidən yazanlar bu günkü gəncliyimizdir.

***- Niyazi müəllim, gənclərin düzgün ruhda yetişdirilməsində təhsil müəssisələrinin hansı rolu vardır?***

- İnsan ta dünyaya göz açdığı gündən onun həyatı formalaşmağa başlayır. Ailədə hansı hərəkət edilsə, körpə dərk etmədən onu edir. Hansı səs tonu səslənsə, hansı sözlər deyilsə, onlar təkrarlanır. Körpə həm gözləri, həm də qulaqları ilə ilkin tərbiyəni alır. Sonra məktəbə gedir. Müəllimlərinin dedikləri, oxuduğu dərsliklər, ətrafındakı məktəbli dostlarının alışqan hərəkətləri ona təsir edir. Bu günkü yeniyetmələrlə işləmək çox çətindir. Texnologiya əsri dünya texnologiyasını öyrətdiyi kimi, bəzən sosial mediada yayımlanan sensasiya yönümlü xəbər və videolar, süni intellektin şaşırdıcı görüntüləri yeniyetmələrin psixologiyasına mənfi təsir göstərir. Bir növ uşaqlar reallıqdan uzaqlaşırlar. Elə buna görə də, müəllim və şagird arasında mehriban və qayğılı münasibət olmalıdır ki, müəllim şagirdə həyat reallığını düzgün çatdıra bilsin. Müəllimlə şagird arasında möhkəm dostluq körpüsü olmalıdır. Təhsil müəssisələri gəncliyi hələ yeniyetməlik çağlarından formalaşdırırlar. Düzgün formalaşan gənclik sabahkı sağlam həyatın bünövrəsidir.

***- Sizcə yaşadığımız zaman kəsiyində gəncliyə diqqət və qayğı varmı? Yəni dövlət və gənclik haqda fikirləriniz?***

- Dövlətimiz gəncliyə həmişə diqqət yetirmişdir. Azərbaycan Respublikasında aparılan gənclər siyasəti dövlətin strateji prioritetlərindən biri kimi qəbul edilir. Bu siyasət gənclərin sosial, iqtisadi, mədəni və siyasi sahələrdə inkişafına şərait yaratmaq üçün müxtəlif proqramlar, qanunvericilik aktları və layihələr vasitəsilə həyata keçirilir.

***- Gənclik və zərərli vərdişlər; belə hallara təsadüf edirsinizmi!***

- Əlbəttə, həyatda heç nə 100 faizlərlə yüksək səviyyədə olmur və ola da bilməz. Zərərli vərdişlər uşaqların ailə və ətraf mühitində formalaşa bilir. Buna görə də, ilk növbədə uşaqlar həmişə ailənin diqqət mərkəzində olmalı, hərtərəfli nəzarət onların hər bir hərəkətinə şamil edilməlidir. Yeniyetməlik çağlarında uşaqlar həm ailə, həm də oxuduğu təhsil müəssisələrində düzgün istiqamətləndirilməlidir. Məktəb-ailə-yeniyetmə-gənc həmişə sıx, birgə ünsiyyətdə olmalı, zərərli vərdişlərə aludəçiliyin qarşısı alınmalıdır. Bu gün təkcə gənc oğlanların deyil, qızların belə elektron siqaret çəkmələri, milli mentalitetimizə xoş olmayan geyim, yaşayış tərzi heç də xoşagələn deyildir. Bu müasirlik də deyil. Ailə və müəllim kollektivləri gənclərin yaşadığımız həyata inteqrasiyasında kino filmlər, sosial mediada bəzi ikrah doğuran video və yazıların prizmasından deyil, azərbaycançılıq nöqteyi-nəzərindən formalaşmasını diqqət mərkəzində saxlamalı və bunu təlqin etməlidirlər.

***- Yaşlı nəslin nümayəndəsi və bir ziyalı kimi deyə bilərsinizmi, gənclərin yetişməsində yaşlı nəslin hansı rolu vardır?***

- Gənclərin yetişməsində və formalaşmasında yaşlı nəslin üzərinə də məsuliyyət düşür. Filosof Aristotelin bir sözü var: "Gənclərin yetişməsinə əhəmiyyət verin. Çünki bu yolda hər hansı bir məsuliyyətsizlik məmləkətin təməlini məhv edər”.

***- Niyazi müəllim, müasir gəncliklə bağlı hansı tövsiyələriniz vardır?***

- Qloballaşmanın, virtuallığın, milli kimlikdən uzaqlaşmanın fəsadlarına qarşı yeniyetmə və gənclərə nəsilnəcabəti qorumaq kimi hisslərin aşılanması nəinki məktəblərin, həm də universitetlərin, KİV-lərin, TV-lərin vəzifəsidir.

Hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən və onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Buna cəmiyyət səfərbər olmalıdır. Unutmamalıyıq ki, gənclik zaman vahidi deyil, düşüncə tərzidir, tərz isə formalaşmadır.

***Müsahibəyə göyə çox sağ olun, Niyazi müəllim!***

**BİBİXANIM.**

# Gənclik bayramı

2 fevral 2026-cı il tarixdə Qəbələ rayonu üzrə təhsil sektorunun və Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Qəbələ Rayon Komitəsinin birgə təşkilatçılığı ilə 2 fevral - Gənclər Günü münasibətilə tədbir təşkil olunub. Tədbir iştirakçıları öncə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət etmiş, abidə önünə gül dəstələri düzərək dahi şəxsiyyətin xatirəsinə böyük hörmət və ehtiramlarını bildirmişlər. Qəbələ Rayon İcra Hakimiyyətinin, rayon üzrə təhsil sektorunun, Həmkarlar İttifaqının Qəbələ Rayon Komitəsinin nümayəndələrinin, şəhid ailələri və təhsil işçilərinin iştirak etdiyi tədbirdə ilk olaraq Azərbaycanın Dövlət Himni səslənmiş, Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad olunması uğrunda şəhadətə yüksəlmiş şəhidlərin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir. Tədbirdə çıxış edən Ətayə Osmanova Azərbaycanda dövlət gənclər siyasətinin Ümummilli Lider Heydər Əliyev tərəfindən təməli qoyulduğunu və bu günkü



bayramın Ulu Öndər tərəfindən gənclərə ərmağan olduğunu bildirmiş, möhtərəm Prezidentimizin Azərbaycan gəncliyinə göstərdiyi qayğı və diqqətdən danışmış, gəncləri bayram münasibəti ilə təbrik edərək, onlara işlərində uğurlar arzulamışdır. Digər çıxış edənlər dövlət tərəfindən aparılan sistemli işləri, inkişafın yeni hədəflərinin müəyyən edildiyini qeyd edərək, əldə olunan tarixi Zəfərdə gənclərin mühüm rolundan, eləcə də cəmiyyətin inkişafına verdikləri töhfələrdən bəhs etmişlər. Tədbirdə bir qrup gənc təhsil işçisinə Şəki - Zaqatala Regional Təhsil İdarəsi Qəbələ rayonu üzrə təhsil sektorunun, ETİHİ-nin Qəbələ Rayon Komitəsinin fəxri fərmanı və hədiyyələri təqdim edilmişdir. Tədbir şagirdlərin ifasında gənclər gününə həsr edilmiş ədəbi-bədii kompozisiyalarla davam etmişdir.

# Azərbaycanın aparıcı qüvvəsi

Bu gün cəmiyyətdə-istər siyasətdə, istər dövlət işlərində-hər sahədə gənclərin fəal iştirakı aşkar hiss olunur və görünür. Gənc alimlər yetişir, gənc idarəedicilər formalaşır, cəmiyyətimizin taleyi gənclərə əmanət edilir. Bu məsuliyyəti dərk etmək, daşıya bilmək isə gənclərimizin ən vacib vəzifəsi olmalıdır. Gənclik yaşına deyil, güclü xarakterinə, savadına güvənməlidir ki, bu vəzifəni də layiqincə yerinə yetirə bilsin.

Hər yaşın öz gözəlliyi vardır. Gənclik həyatın ən mühüm dönüş nöqtələrindən biridir. Bəzi hallarda buna ən çətin dövrlərdən biri də deyə bilərik. Bu dövr insanın dünyaya gəlməyindən sonra ömür silsiləsində elə bir mərhələdir ki, bu dövr ərzində bütün uşaqlıq təcrübələrinin nəzərdən keçirildiyi, köhnə təcrübələrin yaraların bərpa etmək və çatışmazlıqları aradan qaldırmaq üçün təbiət tərəfindən yeni bir şans təqdim edilir. Bu zaman bəzən uyğun olmayan həyat şəraitində, bəzən də iradəyə və xarakterə uyğun olaraq yeni yaralanmalara və sarsılmalara daha çox həssas oluruq. Kimlərsə daha az yara alaraq, kimlərsə həyatın dərsini alaraq keçir bu dönəmdən. Yeniyetməlik dövründən üzü gəncliyə doğru edilən bütün xətaların bədəlini hər insan bir biçimdə ödəyir. Bir dönəm olur ki, günahkar axtarırıq, bununla ovunmağa çalışırıq. Bir dönəm də olur ki, insan həyatının elə bir yetkinlik dövrünə çatır ki, öz mühakiməsini yalnız öz üzərində qurur.

Gənclik həm də millətin gələcəyinin, inkişafının təməl daşıdır. Millətin mövcudluğu üçün sağlam gənclik vacib şərtdir. Hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların hazırlığından, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Hər bir millətin çarpan ürəyi onun gəncliyidir. Tarix dəyişsə də, gənclər estafeti davam etdirir, milli-mənəvi dəyərləri yaşadır, tərəqqiyə töhfələr verirlər.

Müasir dünyada dəyişikliklərin ən sürətli daşıyıcısı məhz gənclərdir. Qloballaşma, rəqəmsallaşma, informasiya bolluğu və texnologiyadakı yeniliklər onların düşüncə

(Ardı 6-cı səhifədə).